2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Nailə Əsgərovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 04 yanvar 2020-ci il tarixli 59 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 05 yanvar 2020-ci il

2020-ci il yanvarın 04-də Xaçmaz rayonunun Qaracik kənd sakini Ağabalayev Kamil Həbib oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, 55 saylı Xaçmaz şəhər seçki dairəsinin Qaraçaycek bələdiyyəsinə keçirilən seçkilərdə qanun pozuntularının baş verdiyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Nailə Əsgərova həmin müraciəti nəzərdən keçirərkən onun müddət ötürülməklə verildiyini müəyyən etdim.

Azərbaycan Respubliası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1.1-ci və 4.1.2-ci bəndlərinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət verilə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1.1-ci, 1.2-ci, 4.1.2-ci, 7.1-ci və 7.10.2-ci bəndlərinə əsasən **r ə y ə  g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Xaçmaz rayonunun Qaracik kənd sakini Ağabalayev Kamil Həbib oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 04 yanvar 2020-ci il tarixli 59 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Nailə Əsgərova